**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNSANIN KOMMUNİKATİV MAHİYYƏTİ

İxtisas: 7207.01 - Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə


**İddiaçı: Pərvin Aydın qızı Kərimova**


Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı–2025**

Dissertasiya işi Xəzər Universitetinin "Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil" fakültəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | fəlsəfə elmləri doktoru, professor<br>**Əli Seyidabas oğlu Abasov** |
| Rəsmi opponentlər: | fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Məhəmməd Soltan oglu Cəbrayılov** |
| | fəlsəfə elmləri doktoru,dosent<br>**Müslüm Hətəm oğlu Nəzərov** |
| | fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Rabil Zəkulla oğlu Mehtiyev** |

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya Şurasının sədri: | fəlsəfə elmləri doktoru, professor<br>**İlham Ramiz oğlu Məmmədzadə** |
| Dissertasiya şurasının elmi katibi: | fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Sevinc Arif qızı Həsənova** |
| Elmi seminarın sədri: | fəlsəfə elmləri doktoru, professor<br>**Rəna Rza qızı Mirzəzadə** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə kommunikasiya texnologiyalarının sürətli inkişafı, qloballaşma proseslərinin intensivləşməsi və rəqəmsallaşmanın həyatın bütün sahələrinə nüfuz etməsi insan mahiyyətinin, sosial şəxsiyyətin və kollektiv mənliyin yenidən formalaşmasına səbəb olmuşdur. Bu mənada, kommunikasiya təkcə ünsiyyət aktı və ya informasiya mübadiləsi deyil, həm də insan varlığının təşəkkül tapdığı əsas ontoloji təməllərdən biri kimi nəzərdən keçirilməlidir.

İnsan mahiyyəti tarixi-mədəni inkişaf prosesində müxtəlif nəzəri istiqamətlərdə tədqiq olunmuşdur. Antik dövrdən başlayaraq insanın "rasional varlıq" kimi müəyyənləşdirilməsi, sonrakı dövrlərdə onun sosial, psixoloji və ekzistensial aspektlərdə öyrənilməsi insan təbiətinin çoxqatlı olduğunu üzə çıxarmışdır. Lakin, XX əsrin ikinci yarısından etibarən fəlsəfi antropologiyada insanın mahiyyətinin kommunikasiya ilə əlaqəli şəkildə izahı daha mərkəzi mövqe tutmağa başlamışdır. Bu yanaşma insanın varlığının sadəcə bioloji və ya sosial kateqoriyalarla məhdudlaşdırıla bilməyəcəyini, əksinə, onun kommunikativ münasibətlər şəbəkəsində formalaşdığını ortaya qoyur. Deməli, insanın mahiyyətini dərk etmək hər şeydən əvvəl onun kommunikativ varlıq olaraq anlaşılmasını tələb edir.

Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və süni intellektin inkişafı bu mövzunun aktuallığını daha da artırır. Texnoloji vasitələr yalnız informasiyanın ötürülmə üsullarını dəyişmir, həm də insanın sosiallaşma mexanizmlərini, dilin semantik strukturlarını və mədəni kimliyin transformasiya proseslərini yenidən qurur. Bu baxımdan, "insanın kommunikativ mahiyyəti" anlayışı həm ontoloji, həm də sosial-fəlsəfi müzakirələrdə əsas tədqiqat predmeti kimi ön plana çıxır. Çünki, insanın özünü dərk etməsi, cəmiyyətlə münasibətləri və mənəvi dünyası artıq ənənəvi ünsiyyət formaları ilə deyil, rəqəmsal şəbəkələr və qlobal informasiya axınları vasitəsilə şərtlənir.

Azərbaycan elmi müstəvisində kommunikasiya problemləri əsasən jurnalistika, dilçilik və qismən informasiya texnologiyaları

kontekstində öyrənilmişdir. Lakin, insan mahiyyətinin kommunikativ təməl üzərindən fəlsəfi analizi geniş şəkildə işlənilməmişdir. Araşdırmaya cəlb olunan dissertasiya məhz bu boşluğu doldurmağı hədəfləyir. Burada kommunikasiya həm sosial hadisə, həm də insan varlığının ontoloji əsası və mənəvi-mədəni transformasiyanın hərəkətverici qüvvəsi kimi təhlil olunur. Bu baxımdan, işin elmi yeniliyi insanın kommunikativ mahiyyətini həm klassik fəlsəfi ənənə (ontologiya, fenomenologiya, epistemologiya), həm də müasir texno-fəlsəfi kontekst (rəqəmsal texnologiyalar, süni intellekt, dördüncü sənaye inqilabı) baxımından sistemləşdirilməsindədir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə, Qərb fəlsəfi ənənəsində XX əsrin ikinci yarısından başlayaraq fəlsəfi düşüncədə "kommunikativ dönüş" anlayışı meydana çıxmışdır. J.Habermas kommunikativ fəaliyyət nəzəriyyəsi ilə sosial reallığı məhz ünsiyyət münasibətlərinin rasional strukturu üzərindən izah etməyə çalışmışdır. Onun fikrincə, insan cəmiyyəti yalnız iqtisadi və ya siyasi mexanizmlərlə deyil, ünsiyyətin mahiyyətində duran anlaşma və razılaşma mexanizmləri vasitəsilə də mövcuddur[1]. Bu yanaşma kommunikasiya prosesinin ontoloji statusunu əsaslandırmaqla yanaşı, onun epistemoloji və etik ölçülərini də ön plana çıxarmışdır.

Kommunikasiya anlayışının fəlsəfi əsasları və epistemoloji problemlərini təhlil edən bir çox müəlliflərin əsərlərində bu mövzu geniş şəkildə araşdırılmışdır. Məsələn, M.Haydegger[2] varlığın dil vasitəsilə anlaşıldığını göstərmiş, J.Habermas[3] kommunikativ rasionallıq və ünsiyyətin sosial koordinasiya gücünü önə çıxarmışdır. M.Buber[4] insan mahiyyətinin "Mən–Sən"

---

[1]Хабермас, Ю. Теория коммуникативного действия / Ю.Хабермас. – М.: Весь Мир, – Т.1, – 2000. – 512 с.

[2]Heidegger, M. Being and Time / M.Heidegger. – Oxford: Blackwell, – 1962. – 589 p.

[3]Habermas , J. The Theory of Communicative Action / J. Habermas .– Boston: Beacon Press, – 1984–1987. Vol. 1–2, – 1198 p.

[4]Buber, M. I and Thou / M.Buber. – New York: Scribner, – 1970,. – 192 p.

münasibətlərində formalaşdığını vurğulamış, J.P.Sartr[5] isə insan mövcudluğunun azadlıq və məsuliyyət çərçivəsində ünsiyyətlə bağlı tərəflərinə toxunmuşdur. Digər tərəfdən, H.G.Qadamer[6] anlamın hermenevtik dairədə dil vasitəsilə qurulduğunu əsaslandırmış, K.Yaspers[7] isə ünsiyyətin ekzistensial təməlini ön plana çəkmişdir. Rus fəlsəfi ənənəsində N.Berdyayev[8] insan yaradıcılığını və mənəvi azadlığı kommunikasiya ilə əlaqələndirmiş, E.İlyenkov[9] biliyin konkret və abstrakt formalarının dialektikasında ünsiyyətin rolunu göstərmişdir.

Kommunikasiya nəzəriyyəsinin struktur və epistemoloji problemlərinə L.Vıgotski, R.Yakobson, Y.Lotman, Ç.Pirs, C.Morris kimi müəlliflər mühüm töhfələr vermişdir[10].

Kommunikasiyanın insan şəxsiyyətinin formalaşmasındakı rolu sosioloji və fenomenoloji yanaşmalarla əsaslandırılmışdır. G.H. Mead sosial şəxsiyyətin "mən" və "digərləri" arasındakı ünsiyyət vasitəsilə formalaşdığını göstərmişdir[11]. A.Şutz fenomenoloji yanaşmada gündəlik həyatın kommunikativ quruluşunu təhlil etmişdir[12]. P.Berqer və T.Lukmann isə sosial reallığın "müəyyənləşdirilməsi" prosesində dil və ünsiyyətin rolunu açmışdır[13].

---

[5]Sartre , J.P. Being and Nothingness / J.P.Sartre. – New York: Washington Square Press, – 1992. – 811 p.

[6]Gadamer, H.G. Truth and Method / H.G.Gadamer. – London: Sheed& Ward, – 1975. – 601 p.

[7]Jaspers, K.. Philosophy / K Jaspers, – Chicago: University of Chicago Press, – 1969. Vol. 1–3, – 868 p.

[8] Бердяев, Н.А. Смысл творчества / Н.А.Бердяев. – Москва: Республика, – 1994. – 383 с.

[9]Ильенков, Э.В. Диалектика абстрактного и конкретного в «Капитале» Маркса / Э.В. Ильенков. – Москва: Наука, – 1960. – 360 с.

[10]Якобсон, Р. Избранные работы / Р. Якобсон. – Москва.: Прогресс, – 1985. – 460 с.

[11] Mead, G.H. Mind, Self, and Society / G.H Mead . – Chicago: University of Chicago Press, – 1934. – 400 p.

[12] Schutz, A. The Phenomenology of the Social World / A Schutz . – Evanston: Northwestern University Press, – 1967. – 255 p.

[13] Berger, P. Luckmann T. The Social Construction of Reality / P.Berger. – New York: Anchor Books, . – 1966. – 219 p..

Dialoq fəlsəfəsinin nümayəndələri – M.Buber və F.Rosenstayq – “Mən və Sən” münasibətlərində kommunikasiya fenomenini insanın varlıqla təması kimi izah etmişdir[14]. J.P.Sartr və A.Kamyu kimi ekzistensialistlər isə ünsiyyəti insanın ekzistensial azadlıq və məsuliyyətinin şərti kimi dəyərləndirmişlər[15].

J.Habermas kommunikativ fəaliyyət nəzəriyyəsində sosiallaşmanı ancaq ünsiyyətin dialoji forması üzərində mümkün hesab etmişdir[16].

V.Onq “Şifahi mədəniyyət və savadlılıq: Sözün texnologiyalaşması”[17] əsərində şifahi mədəniyyətdən yazılı mədəniyyətə keçidi insan təfəkkürünün və yaddaş mexanizmlərinin dəyişməsi kontekstində izah etmişdir.

M.Makluhan “Medianı anlamaq: insan imkanlarının genişlənməsi”[18] əsərində texnologiyaların insan hisslərini və ünsiyyət formalarını necə dəyişdirdiyini göstərmiş, “qlobal kənd” ideyasını irəli sürmüşdür.

E.Eyzenşteyn “Çap dəzgahı dəyişikliklərin aləti kimi”[19] əsərində çap inqilabının Avropanın sosial, dini və elmi inkişafındakı həlledici rolunu təhlil etmişdir.

Kommunikasiya ilə bağlı çoxsaylı araşdırmalara diqqət etdikdə aydın olur ki, kommunikasiya yalnız humanitar problem deyil, həm də siyasi, hüquqi, texnoloji və etik müstəvidə aktuallıq kəsb edən məsələdir.

---

[14] Buber, M. I and Thou / M.buber. – New York: Charles Scribner’s Sons, – 1937. – 153 p.

[15] Sartre, J..P. Being and Nothingness / J..P Sartre. – London: Routledge, – 1993. – 822 p.

[16]Habermas, J. Theorie des kommunikativenHandelns / J. Habermas. – Frankfurt a.M.: Suhrkamp, – 1981. – 541 p.

[17] Ong, W.J. Orality and Literacy: The Technologizing of the Word / W.J. Ong. – London: Methuen, – 1982. – 201 p.

[18] McLuhan, M. Understanding Media: The Extensions of Man / M McLuhan. – New York: McGraw-Hill, – 1964. – 359 p.

[19] Eisenstein, E. The Printing Press as an Agent of Change / E. Eisenstein. – Cambridge: Cambridge University Press, – 1979. – 794 p.

Bu baxımdan, M.Kastels “Şəbəkə cəmiyyətinin yüksəlişi”[20] adlı tədqiqat işində rəqəmsal texnologiyalar əsasında formalaşan şəbəkə cəmiyyətini təsvir etmiş, kommunikasiya strukturlarının yeni iqtisadi və mədəni modelini təqdim etmiş, A.Toffler isə “Üçüncü dalğa”[21] əsərində informasiya əsrini insan həyatının bütün sahələrində yeni transformasiya mərhələsi kimi xarakterizə etmişdir.

Y.Lotman “Semiosfer”[22] əsərində mədəniyyətin mətnlərarası kommunikasiya və simvolik transformasiya üzərində qurulduğunu əsaslandırmış, M.Baxtin “Söz yaradıcılığının estetikası”[23] əsərində dialoq prinsipini əsaslandıraraq, şifahi və yazılı mədəniyyətin qarşılıqlı təsirini göstərmişdir.

H.İnnis “İmperiya və kommunikasiya”[24] əsərində kommunikasiya vasitələrinin (papirus, yazı, çap və s.) imperiyaların siyasi və mədəni strukturlarına təsirini araşdırmışdır.

Müasir dövrdə Dördüncü Sənaye İnqilabı ilə bağlı yaranan yeni texnologiyalar – süni intellekt, böyük verilənlər, maşın öyrənməsi, kibernetik sistemlər – kommunikasiya fəlsəfəsini tamamilə yeni mərhələyə çıxarmışdır. L.Floridi “infosfer” anlayışı ilə insanın kommunikativ mühitini virtual–rəqəmsal məkanla izah edir[25]. Yuval Harari isə süni intellektin gələcəkdə insan münasibətlərini transformasiya edəcəyini, sosial strukturun yeni “rəqəmsal dünyaya” əsaslanacağını vurğulayır, digər tərəfdən, süni intellektin sosial institutların və kollektiv identikliyin gələcəyini

---

[20]Castells, M. The Rise of the Network Society / M.Castells. – Oxford: Blackwell, – 1996. – 556 p.

[21] Toffler, A. The Third Wave / A. Toffler. – New York: Bantam Books, – 1980. – 544 p.

[22] Лотман, Ю..М. Семиосфера / Ю..М Лотман. – Санкт-Петербург: Искусство-СПБ, – 2000. – 704 с.

[23] Бахтин, М.М. Эстетика словесного творчества / М.М Бахтин. – Москва: Искусство, – 1979. – 424 с.

[24] İnnis, H.A. Empire and Communications / H.A İnnis. – Toronto: University of Toronto Press, – 1950. – 304 p.

[25]Floridi, L. The Fourth Revolution: How the Infosphere is Reshaping Human Reality / L. Floridi. – Oxford: Oxford University Press, .– 2014. – 248 p.

dəyişdirəcəyini göstərir[26]. Brundiq və Kania isə süni intellektin geosiyasi və etik aspektlərini analiz edərək, kommunikasiya mədəniyyətinə təsirini açmışlar[27].

Azərbaycan kontekstində isə bu mövzuya toxunan araşdırmalar olsa da, onlar daha çox ənənəvi yanaşmaları ifadə edən tədqiqat işləridir. Fəlsəfi sistemlilik, xüsusən də, ontoloji və epistemoloji çərçivədə dərinləşmiş araşdırmalar müasir rəqəmsal inkişaf kontekstində demək olar ki, mövcud deyil.

Azərbaycan üçün bu mövzunun aktuallığı xüsusilə önəmlidir. Çünki, ölkəmiz müasir qloballaşma proseslərinə qoşularaq öz milli identikliyini qorumaqla yanaşı, qlobal kommunikasiya mədəniyyətinə inteqrasiya etməyə çalışır. Burada milli dəyərlərin və ənənələrin saxlanılması ilə qlobal texnoloji müzakirələrin mənimsənilməsi paralel şəkildə gedir. Bu isə, Azərbaycan cəmiyyətində kommunikasiya fəlsəfəsinin yalnız nəzəri deyil, həm də praktik əhəmiyyətini artırır.

Azərbaycan reallığında isə S.Xəlilov[28], Q.Həsənova[29] kimi tədqiqatçılar kommunikasiya problemini milli fəlsəfi kontekstdə işləyərək insan varlığının mahiyyətinin ünsiyyətlə şərtləndiyini göstərmişlər[30]. Digər tərəfdən, F.İsmayılov[31] ünsiyyətin fəlsəfi problemlərini sistemli təhlil etmiş, A.Rüstəmova[32] isə informasiya cəmiyyətində dil və kommunikasiya münasibətlərinin

---

[26]Harari, Yu.N. Homo Deus: A Brief History of Tomorrow / Y.Harari. – London: Harvill Secker, – 2015. – 450 p.

[27]Brundage, M., Kania E. Artificial Intelligence and International Affairs / M. Brundage. – London: Chatham House, – 2019. – 65 p.

[28] Xəlilov, S.S. Qloballaşma və bütöv bəşəriyyət ideyası // S.S. Xəlilov. – Bakı: Azərbaycan Universiteti, – 2009. – s. 125.

[29] Həsənova, Q.A. Ünsiyyətin etik-estetik əsasları. fəls. e. n. a. dər. al. üçün təq. ol. dis.: 09.00.05; 09.00.04 / Q.A.Həsənova. – Bakı:BDU, – 2000. – 110 s.

[30] İsmayılov, F.Q. Ekzistensializm və kommunikasiya problemləri / F.Q. İsmayılov. – Bakı: Elm, – 2005. – 264 s.; Xəlilov, S. Fəlsəfə və ünsiyyət / S Xəlilov. – Bakı: Qanun, – 2012. – 310 s.

[31]İsmayılov, F. Ünsiyyətin fəlsəfi problemləri / F. İsmayılov. – Bakı: Elm, – 2008. – 312 s.

[32]Rüstəmova, A. Azərbaycanda informasiya cəmiyyətinin fəlsəfi problemləri: dil və kommunikasiya / A. Rüstəmova. – Bakı: Nurlan, – 2016. – 276 s.

transformasiyasını araşdırmışdır. R.Məmmədov “Rəqəmsal media və kommunikasiya mədəniyyəti”[33] əsərində müasir rəqəmsal medianın sosial münasibətlərə və ünsiyyət mədəniyyətinə təsirini təhlil etmişdir.

Ə.Əliyev “Azərbaycan mətbuatının inkişaf tarixi”[34] əsərində milli mətbuatın təşəkkülünü, onun ictimai fikir və maarifçilik prosesindəki rolunu göstərmişdir.

Azərbaycanda bu istiqamətdə Z.Ağayeva[35], Z.Bağırov[36], M.Əsgərov[37], A.Hacıyeva[38], S.İbrahimov[39], İ.Məmmədzadə[40], N.Məmmədli[41], Z.Orucov[42], Ş.Zeynalov[43] və başqalarının əsərlərində kommunikasiyanın müxtəlif formaları bu və ya digər formada araşdırılmışdır.

A.Rüstəmova[44] informasiya təhlükəsizliyi və kommunikasiya texnologiyaları mövzusundakı elmi araşdırması bu problemin

---

[33]Məmmədov, R. Rəqəmsal media vəkommunikasiyamədəniyyəti / R. Məmmədov. – Bakı: Nurlan, – 2019. – 312 s.

[34]Əliyev, Ə. Azərbaycan mətbuatının inkişaf tarixi / Ə. Əliyev. – Bakı: Elm, – 2010. – 268 s.

[35] Ağayeva, Z.B. Tənhalığın fəlsəfəsi / Z.B.Ağayeva. – Bakı: Beynəlxalq Universitet nəşriyyatı, – 2008, – 340 s.

[36] Bağırov, Z.S. Özgələşdirmə: səbəb və nəticələri (rus dilində) / Z.S.Bağırov. – Bakı,:Elm, – 2009, – 320 s.

[37]Əsgərov, M. Dilin qloballaşması / M. Əsgərov. // Bakı: «Tədqiqlər». – AMEA Dilçilik İnstitutu., – «Elm», – 2003. № 2, – s. 19-23.

[38] Hacıyeva, A.Ə. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. / A.Ə. Hacıyeva. – Bakı,: Adiloğlu nəşriyyatı, – 2004, – 168 s.

[39] İbrahimov, S.Q. Ekzistensialist etikanın azadlığının anlaşılmasının tənqidi” Namizədlik dissertasiyası, / S.Q.İbrahimov. – Bakı: – 1970.

[40]Məmmədzadə, İ.R. Mədəniyyətlərarası kommunikasiyanın bəzi fəlsəfi problemləri. // İ.R Məmmədzadə. Bakı: – AMEA Fəlsəfə və Sosiologiya İnstitunun rəsmi saytı. 21.09.2020

[41] Məmmədli, N. “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya”. / N. Məmmədli. Bakı:“Elm və təhsil”, – 2021, – 348 s.

[42]Orucov, Z. Kommunikasiya və şəxsiyyət / Z. Orucov . – Bakı: Elm və Təhsil, – 2010. – 210 s.

[43] Zeynalov, Ş. Dialoq mədəniyyəti və müasirlik / Ş. Zeynalov. Bakı: Avropa, – 2020. – 328 s.

[44] Rüstəmova, A. Azərbaycanda informasiya cəmiyyəti və kommunikasiya problemləri / A Rüstəmova. – Bakı: Elm və Təhsil, – 2018. – 198 s.

Azərbaycanda elmi müstəvidə öyrənilməsinə mühüm töhfə vermişdir.

Beləliklə, kommunikasiya problemi həm fəlsəfi, həm sosioloji, həm də texnoloji-futuristik aspektlərdə həm dünyada, həm də Azərbaycanda müxtəlif istiqamətlərdə öyrənilmişdir. Dissertasiya bu mövzuları birləşdirərək insanın kommunikativ mahiyyətini müasir texnologiyalar fonunda fəlsəfi müstəvidə araşdırmağı hədəfləyir.

**Tədqiqatın obyekt və predmeti** – bu dissertasiya işinin tədqiqat obyekti insanın kommunikativ mahiyyəti və onun mövcudluğunun ontoloji əsaslarıdır. Dissertasiyada həmçinin, Azərbaycanın kommunikativ mədəniyyətinin struktur xüsusiyyətləri və rəqəmsal transformasiya prosesi çərçivəsində üzləşdiyi çağırışlar təhlil edilərək ümumbəşəri və lokal kontekstlər arasında nəzəri körpü qurulur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi insanın ontoloji və sosial mahiyyətinin ünsiyyət vasitəsilə necə formalaşdığını elmi-fəlsəfi baxımdan araşdırmaq, bu prosesi müxtəlif tarixi, mədəni və texnoloji kontekstlərdə nəzərdən keçirməkdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:** Dissertasiya çərçivəsində aparılmış kompleks elmi-fəlsəfi təhlillər nəticəsində aşağıdakı müddəalar müdafiəyə çıxarılır və elmi müzakirəyə təqdim olunur:

- Kommunikasiya anlayışının fəlsəfi əsasları və epistemoloji problemləri sistemli şəkildə təhlil edilmiş, bu anlayışın insanın ontoloji mövcudluğu ilə əlaqəsi kontekstində yenidən nəzərdən keçirilməsi zərurəti əsaslandırılmışdır.
- Şifahi mədəniyyətdən rəqəmsal mədəniyyətə keçid şəraitində kommunikasiya formalarının tarixi transformasiyası izlənilmiş, müxtəlif dövrlərdə ünsiyyət vasitələrinin insan mahiyyəti üzərində yaratdığı təsirlər müqayisəli təhlilə cəlb edilmişdir.
- Rəqəmsal texnologiyaların dilin semantik strukturlarına və mənanın formalaşmasına təsiri araşdırılmış, dilin yalnız ötürücü

vasitə deyil, həm də insanın reallıqla münasibətini təşkil edən fəal semantik sistem olduğu göstərilmişdir.

- İnsanın mahiyyətinin kommunikativ konstruksiyası fenomenoloji baxış və ünsiyyət fəlsəfəsi kontekstində analiz olunmuş, kommunikasiya prosesinin insanın mənəvi, sosial və mədəni kimliyinin qurulmasında təməl rol oynadığı sübut olunmuşdur.
- Kommunikasiyanın sosial şəxsiyyətin təşəkkülündə və fərdi identiklik strukturunun formalaşmasında oynadığı əsaslı rol elmi əsaslarla təsvir olunmuşdur.
- Rəqəmsallaşma dövründə insanın mahiyyətində baş verən transformasiyalar, bununla bağlı yaranan mənəvi-mədəni böhran meylləri və sosiallaşma kontekstində qarşıya çıxan çağırışlar təhlil edilmişdir.
- Dördüncü Sənaye İnqilabı və rəqəmsal texnologiyaların insanın kommunikativ ontologiyasına təsiri, həmçinin bu transformasiyanın fəlsəfi-etik çalarları aydınlaşdırılmışdır.
- İnsan və süni intellekt arasında kommunikasiya perspektivləri texno-fəlsəfi yanaşmalar əsasında təhlil olunmuş, gələcəkdə bu münasibətlərin insan varlığı və ünsiyyət modelinə potensial təsirləri müzakirəyə açılmışdır.
- Azərbaycanda kommunikativ mədəniyyətin struktur xüsusiyyətləri və onun posttexnoloji transformasiya dinamikası araşdırılmış, lokal mədəniyyətin qlobal rəqəmsal çağırışlara adaptasiyası məsələsinə konseptual baxış təqdim edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan mövzunu, problemin qoyuluşunu, tədqiqat metodologiyasını və nəticələrini tənzimləyən aşağıdakı qaydalar elmi innovasiyanın əlamətlərini daşıyır:

- Kommunikasiya anlayışının fəlsəfi və epistemoloji əsasları, insanın ontoloji strukturunda kommunikativ proseslərin rolu yeni fəlsəfi baxış bucağından sistemləşdirilmişdir;

- Rəqəmsal texnologiyaların dilin semantik strukturuna və insan şüurunun formalaşmasına təsiri analitik-fəlsəfi çərçivədə araşdırılmışdır;

- Sosial şəxsiyyətin formalaşmasında kommunikasiya münasibətlərinin strukturu və təsir mexanizmləri fəlsəfi və sosioloji aspektdə əsaslandırılmışdır;

- Rəqəmsal texnologiyalar və Dördüncü Sənaye İnqilabı çərçivəsində insanın kommunikativ ontologiyasında baş verən dəyişikliklər və insan-süni intellekt münasibətlərinin texno-fəlsəfi aspektləri ilk dəfə sistemli şəkildə təhlil olunmuşdur;

- Azərbaycanda kommunikativ mədəniyyətin struktur xüsusiyyətləri və posttexnoloji transformasiya dinamikası kontekstində milli kommunikasiya modellərinin inkişafı məsələsi araşdırılmışdır;

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya işinin metodoloji əsasını insanın kommunikativ mahiyyətini müəyyən edən fəlsəfi, sosial və texnoloji aspektlərin çoxşaxəli elmi təhlili təşkil edir. Bu çərçivədə fənlərarası yanaşma tədqiqatın əsas elmi-praktik xəttini müəyyən edir və insanın ontoloji mövcudluğu ilə kommunikasiya aktları arasındakı qarşılıqlı münasibətlərin kompleks təhlilinə imkan yaradır. İstifadə olunan metodlar həm klassik fəlsəfi yanaşmaları, həm də müasir sosial-fəlsəfi konsepsiyaları əhatə edir.

Dissertasiyada sistemli yanaşma, müqayisəli təhlil, tənqidi-fəlsəfi təhlil, konkret-tarixi metod, analitik-metodoloji konsepsiyalar və sosioloji interpretasiya kimi metodlardan istifadə edilmişdir. Bu yanaşmaların birgə tətbiqi kommunikasiya fenomeninin müxtəlif tarixi mərhələlərdə – şifahi mədəniyyətdən rəqəmsal texnologiyalar dövrünə qədər – necə transformasiyaya uğradığını izah etməyə imkan verir.

Eyni zamanda, tarixilik prinsipi və ictimai-siyasi təhlilin obyektivliyi tədqiqatın məzmununa kontekstual dərinlik qatmaqla insanın sosiallaşma prosesində kommunikativ münasibətlərin rolu və bu münasibətlərin süni intellektlə qarşılıqlı əlaqəsi fonunda dəyişən semantik strukturlar üzərində əsaslandırılmış elmi nəticələrin əldə olunmasına xidmət etmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

Dissertasiyanın əsas elmi nəticələri həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətlidir. Tədqiqat işinin elmi unikallığı kommunikasiya konsepsiyasının tədqiqi və tədqiqat işinin yekun elmi nəticələri ilə müəyyən edilir.

Pedaqoqlar mühazirə mətnlərinin hazırlanmasında, proqramların tərtibində, bakalavr və magistratura tələbələri seminara hazırlaşa, tədris prosesi üçün məqalə hazırlaya və tədqiqat işindən elmi məlumatlar əldə edə bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Xəzər Universitetinin "Təbiət Elmləri, Sənət, Texnologiya və yüksək təhsil" fakültəsində tamamlanmışdır.

Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki tövsiyələri müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə elmi seminarlarda, beynəlxalq elmi-praktiki konfranslardakı çıxışlarında təqdim edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil və ayrı-ayrı elmi problemlərin izah və şərhini nəzərdə tutan paraqraflardan, tədqiqatın ümumi yekunlarını özündə əks etdirən Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işi ümumilikdə 256059 işarədən (ədəbiyyar hissəsi istisna olmaqla) ibarətdir. Giriş 18924 işarədən, birinci fəsil 84201 işarədən, ikinci fəsil 59876 işarədən, üçüncü fəsil 87391 işarədən, nəticə 5667 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, tədqiqatın predmeti və obyekti, məqsədi və vəzifələri qeyd edilir, tədqiqat işinin nəzəri və metodoloji əsasları, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir, müdafiəyə təqdim olunan əsas elmi müddəalar müəyyənləşdirilir və dissertasiyanın nəticələrinin aprobasiyası verilir.

Dissertasiya işinin I fəsli **"Kommunikasiyanın ontoloji təməli"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsil

kommunikasiya anlayışının fəlsəfi əsaslarının və epistemoloji problemlərinin tədqiqinə, onun tarixi transformasiyasının şifahi mədəniyyətdən rəqəmsallığa qədər keçdiyi inkişaf mərhələlərinin araşdırılmasına, həmçinin, rəqəmsal texnologiyaların dilin semantik quruluşuna təsirlərinin nəzəri-fəlsəfi təhlilinə həsr edilir. Fəsildə kommunikasiya fenomeninin insan varlığı, bilik istehsalı və sosial münasibətlər kontekstində izahı, dilin transformativ funksiyaları, cəmiyyətin mədəni və texnoloji inkişafı ilə bağlı müasir çağırışlar nəzərdən keçirilir.

Kommunikasiya həm də biliyin sosial konstruksiyasının əsas mexanizmi kimi dərk edilir. Bilgi fərdin şəxsi fəaliyyəti nəticəsində deyil, sosial mübadilə və ünsiyyət aktları vasitəsilə yaranır və formalaşır. Bu isə dili və ünsiyyət strukturlarını bilik istehsalının ayrılmaz elementləri kimi qiymətləndirməyi tələb edir. Dil yalnız ifadə vasitəsi deyil, həm də reallığın quruluşunu formalaşdıran və onu sosial cəhətdən şərtləndirən əsasdır.

Bununla belə, kommunikasiya prosesi epistemoloji problemlərlə da qarşı-qarşıyadır: anlama və yanlış anlama, məna dəyişkənliyi və kontekstual şərtlər informasiya ötürülməsinin sadə və şəffaf olmadığını göstərir. Hər bir kommunikativ akt fərqli perspektivlər, interpretasiyalar və anlam strukturları arasında dinamik bir tarazlığı əks etdirir.

Bu yarımfəsildə məqsəd kommunikasiya anlayışının fəlsəfi əsaslarını və epistemoloji problemlərini sistemli şəkildə araşdırmaq, insanın kommunikativ mahiyyətini daha dərindən anlamaq üçün əsas nəzəri yanaşmaları təhlil etməkdir. Beləliklə, insan varlığının kommunikativ xarakteri, bilik və anlamın sosial şərtlənməsi, həmçinin, kommunikasiya vasitəsilə reallığın necə qurulduğu məsələləri mövzunun təhlil mərkəzində olacaqdır.

Bu fəslin **“Kommunikasiya anlayışının fəlsəfi əsasları və epistemoloji problemləri”** adlanan birinci yarımfəsli kommunikasiya fenomeninin ontoloji mahiyyətinə və bilik nəzəriyyəsi baxımından doğurduğu problemlərə həsr olunur. Burada vurğulanır ki, kommunikasiya sadəcə informasiya mübadiləsi deyil, həm də insan varlığının sosial müstəvidə təsdiqi,

mənaların paylaşılması və ictimai münasibətlərin qurulması prosesidir.

Fəlsəfi baxımdan kommunikasiya Platonun dialoq konsepsiyasından Habermasın kommunikativ fəaliyyət nəzəriyyəsinədək insanın dünyanı dərk etməsi və həqiqəti təsdiqləməsi ilə əlaqələndirilmişdir. Epistemoloji kontekstdə isə kommunikasiya subyektlər arasında biliklərin necə formalaşdığını, qəbul və interpretasiya mexanizmlərini izah edir. Dil, məna və anlama kimi kateqoriyalar bu prosesin əsas fəlsəfi dayaqlarını təşkil edir.

Burada kommunikasiya həm informasiya ötürülməsi prosesi həm də, insan varlığının sosial təsdiqinin, mənaların paylaşılmasının və ictimai münasibətlərin qurulmasının əsas mexanizmi kimi nəzərdən keçirilir. Bu yanaşma göstərir ki, kommunikasiya həm ontoloji, həm də bilik nəzəriyyəsi baxımından insan mövcudluğunun və sosial sistemlərin ayrılmaz tərkib hissəsidir.

Fəlsəfi baxımdan yarımfəsil Platonun dialoq konsepsiyasından başlayaraq Habermasın kommunikativ fəaliyyət nəzəriyyəsinədək uzanan geniş spektri əhatə edir. Platon üçün dialoq həqiqətə çatma vasitəsi, Habermas üçün isə kommunikasiya sosial konsensusun və ictimai rasionalizmin əsas mexanizmi kimi təqdim olunur. Bu baxışlar arasında ortaq cəhət – ünsiyyətin insanın dünyanı dərk etməsi və sosial reallığı təsdiqləməsi ilə sıx bağlı olmasıdır.

Epistemoloji kontekstdə yarımfəsildə əsas suallar müzakirə olunur: biliklər subyektlər arasında necə formalaşır, necə paylaşılır və hansı interpretasiya mexanizmləri ilə mənalandırılır? Burada dil, məna və anlama kimi fəlsəfi kateqoriyaların mərkəzi rol oynadığı vurğulanır. Dil yalnız informasiya ötürmə vasitəsi deyil, biliklərin strukturlaşdırılması və sosial reallığın qurulması üçün əsas platforma kimi təqdim edilir.

Bu baxımdan, yarımfəsildə göstərilir ki, kommunikasiya fenomeni həm fəlsəfi təhlil, həm də epistemoloji müstəvidə çoxqatlı və mürəkkəb bir hadisədir. O, insanın özünü və dünyanı

dərk etməsinin, sosial münasibətlərin formalaşmasının və həqiqətin təsdiqinin əsas vasitəsi kimi transformativ gücə malikdir.

